# Qərbi Azərbaycana qayıdışa inanırıq

***Öz** mənfur və təhlükəli siyasətini həyata keçirmək üçün ermənilər tarix boyu ağlasığmayan müxtəlif vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə edib, dövlət səviyyəsində separatizmi və qonşu xalqlara qarşı təcavüzü dəstəkləyiblər.*

Azərbaycan torpaqlarını işğal altında saxladıqları 30 il ərzində də dünyada anoloqu olmayan dəhşətli vəhşiliklər, insanların kütləvi qətlə yetirilməsi, diri-diri basdırılması, mədəni, dini, tarixi abidələrin məhv edilməsi acı həqiqətdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevi rəhbərliyi və qətiyyəti ilə, şanlı ordumuzun sücaəti və qəhrəmanlığı ilə müqəddəs doğma torpaqlarımız işğaldan azad ediləndən sonra dünya bu dəhşətin nə dərəcə böyük olduğunu gördü. Müsahibimiz **Gəncə şəhər Ağsaqqallar Şurasının sədri "Tərəqqi" medallı, əməkdar müəllim, ixtiraçı alim, elmlər doktoru, professor Nürəddin Məmmədov** bildirdi ki, bu gün hər birimizin azərbaycanlı kimi əsas vəzifələrimizdən biri erməni vandallarının törətdikləri qeyri-insani əməlləri dünyaya çatdırmaqdır. Eyni zamanda, Qərbi Azərbaycan İcmasının apardığı işlərə yaxından köməklik göstərməli və möhtərəm Prezidentimiz İlham Əliyevin qarşıya qoyduğu vəzifələri uğurla həyata keçirilməsi üçün var qüvvəmizlə çalışmalıyıq. Artıq erməni xislətinin iç üzü tarixi faktlarla dünya mediasında işıqlandırılır. Son 100 ildə erməni lobbisinin, mafiyasının çətiri altında dünyaya bəla olan yeni bir terror mexanizmi fəaliyyətdədir. Ötən əsrin ortalarından başlayaraq, bu cinayətkar mexanizm siyasi alətlərdən istifadə etməklə dünyanın dörd bir yanında terror aktları, cinayətlər, müxtəlif təxribatlar həyata keçiriblər.





Professor birmənalı bəyan etdi ki, hamının bir amalı var: Öz doğma əzəli torpaqlarımıza - Qərbi Azərbaycana qayıdış, oranı dirçəltmək. Tam əminliklə deyə bilərik ki, biz buna nail olacağıq. Bu inamı bizdə yaradan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tam və qəti Qələbədir. Biz də yekdil olaraq ölkə Prezidentin çıxışlarından irəli sürülən tələblərin icrası və Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasının həyata keçməsinə töhfəmizi verməliyik.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika .- 2025.- 14 avqust (№ 169).- S.11.